# Ağ rəngin işığıyla

**Rənglər simvoldur**

Həyatın iki üzü var: ağ, qara. Həyatda rənglər arasında 2 rəng canlı aləmdə əsas rol oynayır: ağ, qara... Başqa rənglər ağ rəngə "don" geydirən, al-əlvanlığı ilə başqa-başqa mənalar kəsb etdirənlərdir.

Hətta təqvimlər belə ağ-qara olur.

İnsan həyatının sevincini-kədərini məcazi mənada, daha qabarıq göstərmək üçün təqvimdə də qırmızı və tünd qara rənglər bəzən özünə yer tuta bilir.

İnsan həyatda yaşamaq və formalaşmaq üçün yarandığı gündən müxtəlif vərdişlər, işlər görmüş, sonralar da bu yaşam savaşında etdiyi vərdişlər peşəkarlığa çevrilmiş, insan övladları sənətkar, peşəkar kimi formalaşmağa başlamışlar. Ərzaq toplasalar da, paltarlar tiksələr də, həyatda yaşamaq üçün, bir-birinin ayaqda qalması üçün özlərini oda-közə vurmuşlar. Təbiətin onlara bəxş etdiyi nemətlərdən istifadə edərək yaralarını sarımış, insan orqanizmini yaşatmaq üçün qidalar kəşf etmişlər.

Sənətlərin ən alisidir insanı yaşatmaq, onun həyatda yaşamasını stimullaşdırmaq. Bu sənət isə lap qədimlərdən loğmanlıq sayılmışdır. Yəqin ki, İbn Sina haqqında ayaqda dura bilən hər kəsin məlumatı var.

Həkimlik-canlı aləmin keşikcisi olmaq deməkdir. Həkimlik ağ rəngin qara rənglə mübarizəsi- həyat və ölüm savaşının rəmzidir. Ağ rəngin keşikçisidir həkimlər. Ta qədimdən ağ rəng onların geyimlərində də bu rəmzi əks etdirmişdir.

**Ağ həkim xalatının tarixi**

Onun yaranma tarixi 1870-ci illərə təsadüf edir. Ağ xalatın ilk yaradıcısı ingilis həkimi Cosef Lister olmuşdur

Ağ həkim xalatının 150 ildən çox yaşı var. Bu xalatlar pasiyentləri infeksiyalardan və yoluxucu bakteriyalardan qorumaq məqsədilə düşünülmüşdür.

Həkim xalatı icad olunanadək, həkimlər pasiyentləri adi, gündəlik geyimlərdə qəbul edirdilər. Əməliyyat zamanı isə önlük və ya xüsusi qolluqlar taxılırdı. Həkim və pasiyentlər arasında nəsə bir "gigiyenik bufer" olması vacib idi, bu "gigiyenik bufer" elə rəngdə olmalı idi ki, onu tez-tez dəyişmək və ya yuyubtəmizləmək lazım gəlsin. Bu səbəbdən ağ rəng ən münasib rəng idi.

20 il bundan öncə müxtəlif sahələrdə çalışan həkimlərin 100 ədəd xalatlarını mikroskop altında analizdən keçirmişlər. Xalatların əksəriyyətində "qızılı stafilokok" (üzüm salxımına oxşar qruplar şəklində yerləşmiş bakteriya) aşkarlanmışdır. Merilend Universitetindən olan alimlər isə bundan bir neçə il sonra məhz elə həkim xalatları vasitəsilə xəstəliklərin bir pasiyentdən digərinə keçdiyini iddia etdilər.

2008-ci ildə Şotlandiyada ağ xalatlardan istifadə tamamilə qadağan edilmiş, İngiltərədə isə ağ xalatlardan istifadə edilməməsi tövsiyə olunmuşdur. ABŞ-da isə bu haqda hər il "Həkimlər Assosiasiyası" tərəfindən məsələ qaldırılır. Rusiyada isə artıq uzun müddətdir ki, "Təcili yardım" şöbələrində çalışan həkimlər rəngbərəng geyim formasına keçmişlər.



İlk öncə iradlar həkim xalatlarının qollarına idi. Belə hesab edirdilər ki, xəstəliklər həkim xalatının qolları vasitəsilə ötürülür. Sonra bu iradlar xalatın düymələrinə və ciblərinə də aid edildi. Bu iradlardan sonra həkim xalatları düyməsiz, cibsiz və qolları çox qısa tikilməyə başladı. Bütün həkimlər uzun qol, düyməli və cibli xalatlardan imtina etdilər. Daha sonra ağ rəngli həkim xalatları tünd rənglə əvəz edildi. Əsas və vacib olan odur ki, həkim xalatları ( və ya geyimləri) hər gün işdən sonra və ya hər bir əməliyyatdan sonra dəyişdirilməlidir.

**İşıq həyat rəmzidir**

Xəstəliklər həkimlərin həyatında heç vaxt qorxu hissi yarada bilməz. Axı həkimlər insan ömrünün sağlamlığının tədqiqatçıları, memarıdırlar. İnsan sağlamlığının keşikçiləri, insan ömrünə ömür qatan varlıqlardır. Söhbət əsl peşəkarlardan gedir. Axı peşəkar həkimlər heç vaxt mənəm-mənəm deməzlər:

Ömrü Allah verir, biz isə ömrün sadiq keşikçiləri olmağa çalışırıq-deyərlər.

Və bunu öz əməli, işləriylə-Hippokrat andına sadiqliyiylə sübuta gətirərlər.

Bəzən xəstələrin yaşamına onların yalnız müalicəsi deyil, xəstələrdə yaratdıqları inam hissi, mehriban davranış tərzi də müsbət təsir göstərir. İşığın qaranlığa qalibliк əzmini xəstələrin düşüncə tərzində ustalıqla yaradır, qaranlıq gecələrin gündüzlərin işığında acizliyini öz əməlləriylə bariz şəkildə doğruldurlar.

İnsan ömrünə ömür qatan bu məsuliyyətli peşə sahibləri hər qarşılaşdığı ölüm-dirim savaşında ömürlərini Şam kimi əridirlər.

**Gələcəyimiz üçün yoluxmadan qorunmalı**

Bütün dünyanı sarsıdan koronavirus pandemiyasının ilk günlərindən Azərbaycan dövləti də onunla mübarizə istiqamətində ciddi tədbirlər gördü. Ölkə Prezidenti İlham Əliyevin gördüyü tədbirlər, verilən qərarlar vətəndaşların sağlamlığının qorunmasına yönəldildi. Altı aydır insanların həyatını koronavirus sözü təşvişə salıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fevralın 11-də pandemiya elan etdiyi infeksiya dünyanın 218 ölkə və bölgəsinə yayılıb. Dünya dövlətlərinin rəsmi statistikasına əsasən pandemiya qurbanlarının sayı hər gün artmaqdadır. Bu isə infeksiyanın daha çox yayılması təhlükəsinin artdığını göstərir. İnfeksiya ilə mübarizədə əsas effektiv üsul sosial izolyasiya və özünütəcrid sayılır.

Koronavirusla əlaqədar ilkin mərhələdə həyata keçirlən qabaqlayıcı tədbirlər ölkəmizi böyük fəlakətlərdən qorudu. Sağlamların sayı yoluxanların sayından çox olduqca karantin rejimi yumşaldılmağa başladı.



Əhali arasında bu virusa qarşı inamsızlıq, laqeydlik yarandı, sanitar-epidemioloji qaydalar kütləvi surətdə pozuldu. Buna görə də, yenidən məhdudlaşdırıcı tədbirlər tətbiq olundu.

Prezident İlham Əliyev insanların həyatı və onların sağlamlığını ön plana çəkdiyi üçün sərtləşdirilmiş tədbirlər gördü. Ölkə Prezidenti bildirmişdir ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın surəti azalsın, bütün xəstələr lazımı müalicə alsın.

Bəzən bu koronavirus COVİD-19 pandemiyasının olmasına inamsızlıq yaranır və bu rəqəmsal bir dünyaya keçid addımı kimi düşünülür. Ancaq bütün dünyanı təşvişə, qorxuya salan bu tarşəkilli virusun həyatımızda hərtərəfli təsirini görməliyik, bunun ciddiliyinə inanmalıyıq. Axı yaşadığımız hər gün özü bunu bizə diktə edir. Gələcəyimizi qorumaq üçün yoluxmadan qorunmalıyıq!

**Azərbaycan həkimləri qəhrəmanlıq göstərirlər**

Koronavirus pandemiyasının yayıldığı ilk günlərdən həkimlərimiz və tibb işçilərimiz iş fəaliyyətini gücləndirdilər. Qoruyucu vasitələr onların həyatının qarantisinə çevrildi. Onlar isə hər bir xəstənin müalicəsi və həyatda qalması üçün əsl "savaşa" qalxdılar. Günlərlə ailəsindən, öz doğma evindən uzaq düşdülər. Taxdıqları maskanın üzlərində, spirtlərin isə əllərində yaratdığı izlər, allergiyalar, skafandrların daimi geyimə çevrilməsi onların adi iş gününü təzahür etdirdi. Xəstələrin qorxu və təşvişinin xəstəliklərdən də ön planda onları narahat etməsi tibb işçilərinin məsuliyyətini daha da artırdı. Lakin Azərbaycan həkimləri virusun yoluxma təhlükəsindən qorxmayaraq xəstə ilə həkim münasibətini daha da doğmalaşdırır, onların həm müalicəsində, həm də, xəstələrə yanaşma tərzinə məsuliyyətlərini artırırdılar.

Müalicə zamanı onlarca tibb işçiləri, həkimlər bu virusa yoluxdular. Əlbəttə onlar arasında sağalıb öz işinə davam edənlər də var, dünyasını dəyişənlər də…

Həkimlər bizi yaşadır, sağlamlığımız, sağlam ruhumuzu qoruyurlar. Onlar insanların-öz passiyentlərinin ürəyini hələ ilk baxışdan duyar,hərarətini tutarlar. Həyatdan "əlini üzən" insanları həyata qaytarmaqla əsl möcüzə yaradar və bunu bizlərə bariz şəkildə göstərərlər.

Həkimlik insnlara diqqət və qayğı nümunəsidir, həkimlər isə sağlamlığın sığortaçılarıdır.

Pandemiyanın tüğyan etdiyi bir dövrdə onların nə gecəsi var, nə gündüzü… Bəzən insan taleyi naminə 24 saat işləyirlər. Ailə, istirahət qayğıları həyatlarında arxa plana çəkilir. Hətta öz həyatları belə hər an risk altında olur.

Respublikamızda koronavirus (COVİD-19) pandemiyasına yoluxmuş səhiyyə işçiləri arasında sağalıb öz işinə qayıdanlar da var, dünyasını dəyişənlər də… Bakının Mərdəkan qəsəbəsində Gülnarə Xəlilova (1959), Sumqayıt şəhər 3 saylı poliklinikasının həkimi Fəxrəddin Məmmədov (1958), Sumqayıtda yaşayan həkim-anesteziolоq Fərman Suleymanov (1971) və neçə-neçə həkim və tibb işçiləri bu pandemiyanın qurbanı olmuşlar. Əlbəttə, immun problemi olan peşəsindən asılı olmayaraq, hər bir insan bu virusa daha tez yoluxma ehtimalındadır. İnsanların həyatını öz həyatları bahasına qoruyan sağlamlıq keçikçiləri şəhid kimi həyatdan köçürlər.

Onları-sağlamlıq keşikçilərini qorumaq, həyatımızı riskə atmamaq, gələcəyimizi qorumaq üçün pandemiyadan qorunmanın şərtlərinə düzgün əməl edək. Həkimlərimizin həyatını qoruyaq ki, onlar da bizlərin həyatının keşiyində dayana bilsinlər!

**BİBİXANIM.**

# Karantin rejiminə uyğun

Xidmət sahələri istehsal prosesi olmadan, başqalarının ehtiyacını ödəmək üçün həyata keçirilən əmək fəaliyyətidir. Əhaliyə göstərilən xidmət fiziki və sosial mədəni sahələrə ayrılır.

Fiziki xidmət–İstehlakçının maddi və gündəlik tələbatını ödəmək üçün edilən xidmət növüdür. Fiziki xidmət dedikdə məhsulların istehsal xassəsinin artması və dəyişdirilməsi ,vətəndaşların arzusuna görə yeni məhsulların istehsalı, istehlak məhsullarının və insanların daşınmasının təmin edilməsi,iaşə xidmətləri, mənzil kommunal xidmətləri, nəqliyyat xidmətləri, təmir işləri ilə bağlı ferdi fəaliyyətin həyata keçirilməsi başa düşülür.

Bu gün dünyanın gözəgörünməz düşməni olan koronavirus pandemiyası ilə mübarizə aparmasına baxmayaraq, bəzi vacib xidmət sahələri var ki,onlar öz işini davam etdirməli, əhalini gündəlik ərzaq, geyim məhsulları və kommunal xidmətlərlə təmin etməlidirlər. Bunlara rayonumuzda yerləşən böyük ticarət mərkəzlərini də nümunə göstərmək olar. Ölkəmizdə tətbiq olunan ciddi karantin rejiminə uyğun fəaliyyət göstərən bu ticarət mərkəzlərinin işçiləri əhaliyə yerində xidmət göstərmək üçün sözün əsl mənasında hər gün sanki virusla savaşırlar. Fəaliyyət göstərdikləri məkanda sosial məsafə saxlanılmalı olduğunu,məkana daxil olanların girişdə qoyulmuş dezinfeksiyaedici məhlullarla virusa qarşı önləyici tədbirlər almalı olduqlarını da müştərilərin diqqətinə çatdıran xidmət rəhbərləri bu kimi mübarizə tədbirləri ilə ölkəmiz və əhalimiz üçün əllərindən gələni edirlər.

Eyni zamanda əhalinin gündəlik tələbatı içərisində yer alan kommunal xidmətlər göstərən "Azərsu", "Azərişıq", "Azərqaz" kimi təşkilatlar da pandemiya dövründə əhalinin çətinlik çəkməməsi üçün hər zamankindən daha ciddi səylə çalışır və əhalinin işığa, suya, qaza olan ehtiyacını ödəməyə çalışırlar. Bu xidmət sahələri də qaydalara uyğun olaraq müəyyən sayda qruplarla, virusa qarşı önləyici tədbirlər alaraq fəaliyyətlərini davam etdirirlər.

Bu qəbildən olan əhaliyə xidmət təşkilatlarına təşəkkür edir və işlərində uğurlar arzulayırıq!

**Əfsanə ZAKİROVA.**

# Rəğbətlə qarşılanmışdır

Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin (AKƏM) başladığı "Bir-birimizi




qoruyaq" kampaniyasına qoşulan könüllülər yaranmış vəziyyətlə əlaqədar öz fəaliyyətlərinə daha məsuliyyətli yanaşırlar. Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələri və ASAN xidmət idarəsinin könüllüləri koronavirus pandemiyasının qarşısının alınması ilə əlaqədar rayon sakinləri ilə görüşmüş, bu pandemiyanın insanlara ağır təsiri ilə bağlı söhbətlər aparmış, həmçinin, onlara qoruyucu vasitələr -maskalar, əlcəklər və s. paylamışlar.

Onların bu görüş və maarifləndirmə işi sakinlər arasında rəğbətlə qarşılanmışdır